**Rəhimli, Mərhəmətli Allahın adı ilə!**

# MÜQƏDDİMƏ

Şükr və tərif Allaha məxsusdur. Biz ona şükr edir, Onu tərif edirik, Onu köməyə çağırırıq, Ondan bağışlanma diləyirik, nəfslərimizdəki şərdən, əməllərimizdəki pisliklərdən qorunmaq üçün Allaha sığınırıq. Allahın haqq yoluna yönəltdiyi şəxsi azdıran, azdırdığı şəxsi isə haqq yoluna yönəldən tapılmaz. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə haqqı olan tanrı yoxdur, Onun şəriki yoxdur və şəhadət edirəm ki, Məhəmməd ﷺ Onun qulu və elçisidir.

«Ey iman gətirən kəslər! Allahdan lazımınca qorxun və yalnız müsəlman olduğunuz halda ölün!»[1]

«Ey insanlar! Sizi tək bir şəxsdən (Adəmdən) xəlq edən, ondan zövcəsini (Həvvanı) yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun! (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər istədiyiniz) Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə nəzarətçidir!»[2]

«Ey iman gətirən kəslər! Allahdan qorxun və doğru söz söyləyin! (Əgər belə etsəniz) Allah əməllərinizi islah edər və günahlarınızı bağışlar. Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə nail olar».[3]

Müsəlman qardaş və bacılarım! Bu müxtəsər və maraqlı risalə sizi lazımınca valideynlərin qayğısına

---

[1] «Ali İmran» surəsi, 102-ci ayə.
[2] «ən-Nisa» surəsi, 1.
[3] «əl-Əhzab» surəsi, 70-71.

qalmağa sövq edər və onların haqlarını ödəməyə vadar edər. Həqiqətən bu mövzu günümüzdə baş verən bir çox problemlərin qarşısını ala bilər və ata-anaya qayğı göstərmək üçün hər bir müsəlmana yol göstərər.

Əzəmətli Allahdan rica edirik ki, Allah subhənəhu təalənin kitabını və Rəsulullahın ﷺ sünnəsini öz həyatının bütün sahələrində rəhbər tutan müsəlman ümmətinə uğurlar bəxş etsin. O, doğrudan da Eşidən və cavab Verəndir. Sonuncu duamız budur: Əl-həmdu lilləhi rabbil-aləmin – Aləmlərin Rəbbi Allaha şükürlər olsun!

# VALİDEYNLƏRİN İSLAMDA YERİ

Hər bir müsəlman ilk əvvəl onu yaradan Allahı, sonra ona doğru yolu (siratəl müstəqim) göstərən peyğəmbərini və daha sonra valideynlərini sevməli və onlara itaət etməlidir.

Allah təalə buyurur: «İnsanların içərisində Allahdan qeyrilərini Allaha şərik qoşub, onları Allahı sevən kimi sevənlər də vardır. Halbuki, iman gətirənlərin Allaha məhəbbəti daha qüvvətlidir».[1]

Ənəs bin Malikin ﵁ rəvayət etdiyi hədisdə Peyğəmbər ﷺ demişdir: «Sizdən biriniz məni valideynindən, övladından və bütün insanlardan çox sevməyincə imanı (kamil) olmaz».[2]

Əbu Hureyrə ﵁ rəvayət edir ki, bir kişi Peyğəmbərin ﷺ yanına gəlib dedi: «Ey Allahın elçisi! Mən kimə daha çox qayğı göstərməliyəm!» O dedi: «Anana». Kişi soruşdu: «Sonra kimə?» Peyğəmbər ﷺ dedi: «Anana». Kişi təkrar soruşdu: «Sonra kimə?» O dedi: «Anana». Kişi bir daha soruşdu: «Bəs sonra kimə?» Peyğəmbər ﷺ bu dəfə «Atana» – deyə cavab verdi».[3]

# ATA-ANAYA QARŞI İTAƏT VƏ NƏVAZİŞİN VACİBLİYİ

Müqəddəs Quranın ayələrinə, mötəbər hədislərə, səhabələrin və islam alimlərinin həmrəy olduqları fikirlərinə

---

[1] «əl-Bəqərə», 165.
[2] Müslim, 167.
[3] əl-Buxari, 5971.

və Azərbaycan şairlərinin şerlərinə əsaslanaraq bu itaət və nəvazişin vacib olduğunu sübuta yetirmək olar.

Allah təala buyurur: «Allaha ibadət edin, və Ona heç kəsi şərik qoşmayın! Ata-anaya da yaxşılıq edin».[1]

«Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara itaət edib, nəvaziş göstərməyi və onlarla gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara: "uf" – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: "Pərvərdigara! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!" – de».[2]

«Biz insana ata-anasına yaxşılıq etməyi (onlarla gözəl davranmağı) tövsiyə etdik. Ey insan əgər valideynlərin bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə».[3]

«Biz insana ata-anasına yaxşılıq etməyi (valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bədənində) çox zəif bir halda daşımışdı…»[4]

Abdullah bin Məsud ﵁ rəvayət edir ki, mən Peyğəmbərdən ﷺ hansı əməlin Allaha daha sevimli olduğunu soruşduqda o dedi: «Vaxtında qılınan namaz». Mən: «Bəs sonra?» – deyə soruşduqda, o dedi: «Valideynlərə (onlara itaət edib, nəvaziş göstərməklə) yaxşılıq etmək…»[5]

---

[1] «ən-Nisa» surəsi, 36.
[2] «əl-İsra» surəsi, 23-24.
[3] «əl-Ənkəbut» surəsi, 8.
[4] «Loğman» surəsi, 14.
[5] əl-Buxari, 5970.

Abdullah bin Ömər ؓ rəvayət edir ki, bir kişi gəlib Peyğəmbərdən ﷺ cihada getmək üçün izn istədikdə o soruşdu: «Valideynlərin sağdırmı?» Kişi «bəli» deyə cavab verdi. Peyğəmbər ﷺ ona dedi: «Elə isə onlar üçün (onlara itaət etmək və nəvaziş göstərməklə) çalış».[1]

Əbu Hureyrə ؓ rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: «Zəlil oldu! Zəlil oldu! Zəlil oldu! Səhabələr: «Kim, ey Allahın elçisi?» – deyə soruşduqda, o dedi: «O şəxs ki, valideynlərinin və ya onlardan birinin qocalığında onlarla birgə yaşayıb cənnətə daxil olmasın» (onlara itaət etməyib, nəvaziş göstərmədiyinə görə).[2]

Abdullah bin Amr bin əl-As ؓ rəvayət edir ki; Peyğəmbər ﷺ dedi: «Allahın razılığı valideynin razılığı ilə, qəzəbi də onun qəzəbi ilə bağlıdır».[3]

Əbu Bəkr ؓ, Ömər ؓ, Osman ؓ, Əli ؓ, Həsən ؓ, Hüseyn ؓ, İbn Abbas ؓ, İbn Ömər ؓ, Əbu Hureyrə ؓ, Cəfər əs-Sadiq, Əbu Hənifə, Malik, əş-Şafii, Əhməd, əl-Buxari, Muslim, Əbu-Davud, ən-Nəsai, ət-Tirmizi, İbn Macə, ət-Tabari, əl-Qurtubi, ibn Teymiyyə, ibn Kəsir, ibn Həcər, ən-Nəvəvi, əl-Albani, ibn Baz, Useymin və s. islam alimləri bu itaətin və nəvazişin vacib olduğunu təsdiqləmişlər.

## VALİDEYNLƏRİN HAQLARI

***1. Valideynlər üçün dua etmək və Allahdan onlara bağışlanma diləmək:***

---

[1] əl-Buxari, 5972. (Şeytanla, nəfslə mübarizə aparmaq özü də cihad hesab olunur.)
[2] Muslim, 6557.
[3] «Səhih hədislər silsiləsi», 516-cı hədis.

Allah təalə Nuh ﷺ haqqında demişdir: «Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə mömin kimi daxil olan kimsəni və bütün mömin kişiləri və qadınları bağışla. Zalimlərin isə ancaq həlakını artır!»[1]

***2. Valideynləri söydürməmək:***

Abdullah bin Amr ﷺ rəvayət edir ki; Peyğəmbər ﷺ demişdir: «Kişinin valideynlərini lənətləməsi (söyməsi) böyük günahlardandır» (Səhabələr): «Ey Allahın elçisi! Kişi də valideynlərini lənətləyərmi?» – deyə soruşduqda, o dedi: «Birinin ana-atasını söyür, o da qayıdıb onun ata-anasını söyür».[2]

***3.Valideynləri İslama dəvət etmək:***

Əbu Hureyrə ﷺ belə rəvayət edir: «Mən müşrik olan anamı İslama dəvət edirdim. Bir gün yenə onu dəvət etdikdə, Peyğəmbər ﷺ haqqında nalayiq sözlər dedi. Mən ağlaya-ağlaya Peyğəmbərin ﷺ yanına gəlib, dedim: «Ey Allahın elçisi! Mən anamı İslama dəvət edirdim, o da bunu inkar edib, sənin haqqında nalayiq sözlər dedi. Allaha dua et, Əbu Hureyrənin anasına hidayət versin». Peyğəmbər ﷺ dedi: «Allahım, Əbu Hureyrənin anasına hidayət ver!» Mən Peyğəmbərin ﷺ duasından sonra sevincək evə getdim. Qapıya çatdıqda anam ayaq səslərimi eşitdi və mənə yerimdə durmağı əmr etdi. Sonra çimib (qüsl edib) paltarını geyindi, qapını açıb mənə dedi: «Əbu Hureyrə! Şəhadət verirəm ki, Allahdan başqa məbud yoxdur və Məhəmməd Onun qulu və elçisidir».

---

[1] «Nuh» surəsi, 28.
[2] əl-Buxari, 5973.

Mən sevincimdən ağlaya-ağlaya Peyğəmbərin ﷺ yanına gəlib ona dedim: «Ey Allahın elçisi! Gözün aydın, Allah sənin duanı qəbul etdi və Əbu Hureyrənin anasına hidayət verdi…»[1]

***4. Var-dövlətdən ilk əvvəl valideynlər üçün xərcləmək:***

Allah təalə buyurur: «(Ya Məhəmməd!) Səndən (Allah yolunda) nə verəcəkləri haqqında soruşanlara söylə: «Malınızdan verəcəyiniz şey ata-anaya, (yoxsul) qohumlara, yetimlərə, miskinlərə, (yolda pulu qurtaran) müsafirlərə məxsusdur. Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir».[2]

***5.Valideynlərə hikmətlə, gözəl tərzdə nəsihət etmək:***

Allah təalə buyurur: «(Ya Məhəmməd!) Quranda İbrahimi də yad et (onun hekayətini də ümmətinə söylə). Həqiqətən, o, büsbütün doğru danışan bir zat, bir peyğəmbər idi. O, bir zaman atasına belə demişdi: «Atacan! Nə üçün görməyən, eşitməyən, sənə heç bir fayda və zərər verə bilməyən bütlərə ibadət edirsən. Atacan! Həqiqətən, sənə gəlməyən bir elm (peyğəmbərlik) mənə gəlmişdir. (sənə müyəssər olmayan bir şey mənə müyəssər olmuşdur) Ardımca gəl ki, səni (Allahın buyurduğu) doğru bir yola çıxardım! Atacan! Şeytana ibadət etmə! Həqiqətən şeytan Rəhmana (Allaha) çox asi olmuşdur. Atacan! Qorxuram ki, (tövbə etməsən) Allahdan sənə bir əzab toxunsun və beləcə (Cəhənnəmdə) şeytana yoldaş olasan!»[3]

---

[1] Muslim, 6346.
[2] «əl-Bəqərə» surəsi, 215.
[3] «Məryəm» surəsi, 41-45.

***6. Valideynlər müşrik, kafir olsalar belə, onları tərk etməmək:***

Allah təala buyurur: «Əgər ata-anan bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd  göstərsələr (bu işdə) onlara itaət etmə. (Qalan) Dünya işlərində onlarla gözəl keçin (onlara itaət et).[1]

Əsma bint Əbu Bəkr رضي الله عنها rəvayət edir ki, «Mənim müşrik anam qohumluq əlaqəsini kəsməmək üçün məni ziyarət etdi. Mən Peyğəmbərdən ﷺ "Onunla qohumluq əlaqəsini kəsimmi?" – deyə soruşdum. O: "Xeyr" – deyə cavab verdi». İbn Uyeynə deyir ki, Allah təalə bu haqda ayə nazil etdi: «Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!»[2]

***7. Övladın, valideynləri onun əleyhinə dua etməsi həddinə çatdırmaması:***

Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, peyğəmbər ﷺ dedi: «Üç şəxsin duası müstəcəbdir[3]: məzlumun, müsafirin və valideynin övladı əleyhinə etdiyi  dua».[4]

***8. Valideynlərə olan itaət və nəvazişin hədsiz olması:***

Yəni hər hansı bir şəxs valideynlərinə  istənilən qədər yaxşılıq etsə belə onların haqqını lazımınca ödəyə bilməz.

Əbu Burdə rəvayət edir ki, bir Yəmənli kişi anasını kürəyinə götürüb Kəbəni təvaf etdikdən sonra gəlib İbn

---

[1] «Loğman» surəsi, 15.
[2] «əl-Mumtəhinə» surəsi, 8.
[3] Allah tərəfindən qəbul olunan.
[4] «Səhihul-ədəbil-mufrad», 32.

Ömərə ﵁ dedi: «Bunu etməklə mən anamın haqqını ödəmiş sayılırammı». İbn Ömər ﵁ ona dedi: «Xeyr, bunu etməklə sən onun bir iniltisini[1] belə ödəmiş sayılmırsan».[2]

***9. Başqa valideynlərə də hörmət etmək:***

Allah təalə buyurur: «Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. Onun zövcələri möminlərin analarıdır».[3]

Ənəs bin Malik ﵁ rəvayət edir ki, peyğəmbər ﷺ dedi: «Kiçiyimizə rəhm etməyən, böyüyümüzə hörmət etməyən bizdən deyil!»[4]

***10. Valideynlərlə sərt davranmamaq:***

Allah-təalə valideynlərə «uf» deməyi belə qadağan etmişdir: «…Əgər onların biri və ya hər ikisi sənin yanında [yaşayıb] qocalığın ən düşgün çağına yetərsə, onlara: "uf!" – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!»[5]

***11. Valideynlərə təşəkkür etmək:***

Hər bir insan bilməlidir ki, Allah onu yaradıb, ana bətnində olduğu müddətin 120-ci günündə ona ruh verib və valideynləri də onun yaranması üçün vasitəçi edib. Elə isə insan ilk əvvəl Allaha sonra da ana-ataya şükr etməlidir: "Mənə və ana-atana şükr et. Axır dönüş Mənədir!"[6]

---

[1] Burada doğuş zamanı qadının iniltisi nəzərdə tutulur
[2] «Səhihul-ədəbil-mufrad», 11.
[3] «əl-Əhzab» surəsi, 6.
[4] «Səhih hədislər silsiləsi», 2196.
[5] «əl-İsra» surəsi, 23.
[6] «Loğman» surəsi, 14.

***12. Valideynlərin izni olmadan fardul-kifayə[1] sayılan cihada (müharibəyə) getməmək:***

Talhə ؓ rəvayət edir ki; Cahimə ؓ Peyğəmbərə ﷺ dedi: “Ey Allahın elçisi! (Allah yolunda) vuruşmaq istəyirəm, ona görə də səndən məsləhət istəyirəm”. Peyğəmbər ﷺ dedi: “Sənin anan var?” O, “Bəli” – deyə cavab verdikdə, Peyğəmbər ﷺ ona əmr edib dedi: “Ananın qayğısına qal!”[2]

Əbu Səid əl-Xudri ؓ rəvayət edir ki; bir kişi Yəməndən Peyğəmbərin ﷺ yanına hicrət (səfər) etdi. Peyğəmbər ﷺ ondan: “Yəməndə doğmaların varmı?” deyə soruşduqda o, “Valideynlərim var” deyə cavab verdi. O bir daha: “Onlar sənə izn veriblərmi?” deyə soruşduqda, o “Xeyr” – deyə cavab verdi. Peyğəmbər ﷺ də ona əmr edib dedi: «Qayıt onlardan izn istə. İzn versələr (gəl Allah yolunda) vuruş, əks halda isə onların qayğısına qal»[3]

Abdullah ibn Ömər ؓ rəvayət edir ki; bir kişi (cihat etmək üçün) Peyğəmbərin ﷺ yanına gəlib dedi: «Mən valideynlərimi ağlar qoyub (cihada getməyə) sənə beyət[4] etmək üçün gəlmişəm» O dedi: «Qayıt onları ağlar qoyduğun kimi, güldür, sevindir!»[5]

Qeyd etmək lazımdır ki, hakim tərəfindən səfərbərlik elan olunduqda və ya vətənə düşmən soxulduqda artıq cihad fardul-ayn[6] hesab olunur. Bu hallarda valideynlərdən izn istəmək vacib deyil.

---

[1] Bir və ya daha çox müsəlmanların yerinə yetirməsi ilə digərləri üçün vacib olmayan əmələ deyilir.
[2] Müsnəd, 3/429; «İrvaul-Ğalil», 5/21.
[3] Əbu Davud, 2527; «İrvaul-Ğalil», 5/21.
[4] Ölənə qədər hər hansı bir əməli etməyə söz vermək.
[5] Əbu Davud, 2525; «İrvaul-Ğalil», 5/20.
[6] Hər bir müsəlman şəxsin üzərinə düşən vacib əmələ deyilir.

***13. Valideynlərin xətrinə dəydikdə, onlardan üzr istəmək və halallıq almaq:***

Əbu Hureyrə رضي الله عنه rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: «Qardaşına[1] zülm[2] etmiş şəxs dinar və dirhəmin fayda verməyəcəyi gün[3] gəlməmiş ondan (məzlumdan) halallıq alsın…»[4]

Peyğəmbər ﷺ Muaz bin Cəbəli رضي الله عنه Yəmənə göndərdikdə ona tövsiyə edib demişdir: «Məzlumun duasından (qarğışından) qorx! Həqiqətən onun duası ilə Allahın arasında hicab (maneə) mövcud deyil».[5]

Əl-Muğira bin Şöbə رضي الله عنه və Əbu-Bəkrətədən رضي الله عنه rəvaət olunan hədisdə Peyğəmbər ﷺ valideyni incitməyin haram və böyük günahlardan olduğunu vurğulamışdır.[6]

***Valideynlərini incidən şəxs dünyada ikən cəzasına çata bilər!!!***

Əbu-Hureyrə رضي الله عنه rəvayət edir ki; Cüreyh رضي الله عنه öz komasında sünnə (əlavə) namazını qılırdı və bu vaxt anası gəlib onu çağırdı: «Ey Cureyh! Mən sənin ananam, cavab ver!» O isə namaz qılmağına davam etdi. Anası çıxıb getdi. Bir müddət keçdikdən sonra yenə qayıdıb onu çağırdı: «Ey Cureyh! Mən sənin ananam, cavab ver!» O isə əvvəlki kimi namaz qılmağına davam etdi. Bu halı görən anası, dua edib dedi: «Allahım! Cureyh mənim oğlumdur, mən onu çağırdım, o isə mənim çağırışıma hay vermədi.

---

[1] Burada hər bir müsəlman nəzərdə tutulur

[2] Acılamaq, haqsız olaraq malını mənimsəmək və s.

[3] Yəni qiyamət günü.

[4] əl-Buxari, 2449.

[5] əl-Buxari, 2448.

[6] əl-Buxari, 5975, 5976.

Allahım! Fahişələri ona göstərməmiş (imtahan etməmiş) onun canını alma!».

Əbu Hureyrə ﷺ rəvayətə belə davam edir ki; qoyun otaranlardan biri onun komasına gələrdi. Bir gün o, kənd əhlindən olan bir qızla zina etdi və ondan uşaq oldu. Ondan uşağın kimdən olduğunu soruşdular. O dedi: «Bu komanın sahibindən». Kənd əhli balta, bel götürüb Cüreyhin komasının yanına gəldilər və onu çağırdılar. O, namaz qıldığı üçün onlara cavab vermədi. Onlar da, onun komasını dağıtdılar. Bunu görən Cureyh onların yanına gəldi. Təbəssüm edib uşağın başını sığalladı və dedi: «Sənin atan kimdir?» Uşaq dedi: «Mənim atam qoyun otarandır…»[1]

***Haqların xülasəsi:***

1. Valideynlər üçün dua etmək və Allahdan onlara bağışlanma diləmək.
2. Valideynləri söydürməmək.
3. Valideynləri İslama dəvət etmək.
4. Var-dövlətdən ilk əvvəl valideynlər üçün xərcləmək.
5. Valideynlərə hikmətlə, gözəl tərzdə nəsihət etmək.
6. Valideynlər müşrik, kafir olsalar belə, onları tərk etməmək.
7. Valideynləri övladın əleyhinə dua etmək həddinə çatdırmamaq.
8. Valideynlərə hədsiz itaət və nəvaziş göstərmək .
9. Başqa valideynlərə də hörmət etmək.
10. Valideynlərlə sərt davranmamaq.

[1] Muslim, 6455.

11. Valideynlərə təşəkkür etmək.

12. Valideynlərin izni olmadan fardul-kifayə sayılan cihada (müharibəyə) getməmək.

13. Valideynlərin xətrinə dəydikdə onlardan üzr istəmək və halallıq almaq.

***Valideynlərin qayğısına qalmaq üçün insana yardım edən amillər:*** [1]

1. Bu işdə Allaha sığınmaq və yalnız ondan yardım istəmək.
2. Qayğıkeşliyin fəzilətini və nankorluğun aqibətini xatırlamaq.
3. Valideynlərin fəzilətlərini xatırlamaq.
4. Valideyn haqqını ödəməyi borc hesab etmək.
5. Valideynlərin saleh olması.
6. Allahdan qorxmaq.
7. Özünü valideynlərin yerinə qoymaq.
8. Övladı qayğıkeş  böyütmək.
9. Valideynlərinin qayğısına qalmış insanların həyat tərzinə nəzər salmaq.
10. Qayğıkeş insanlardan məsləhət almaq.

[1] «Üququl valideyn», səh. 48-53.

## VALİDEYNLƏRLƏ GÖZƏL RƏFTARA İBRƏTAMİZ NÜMUNƏLƏR:

“(Yəhya) ata-anasına qarşı olduqca itaətkar və nəvazişkar idi; zalim [dikbaş] deyildi”[1]

“[Allahdan bir möcüzə olaraq körpə[2] dilə gəlib] dedi: “Mən, həqiqətən, Allahın quluyam. O mənə kitab [Incil] verdi, özümü də peyğəmbər etdi. O, harada oluramsa olum, məni mübarək [həmişə hamıya xeyir verən, dini hökmləri öyrədən] etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyə buyurdu. O, həmçinin məni anama qarşı olduqca itaətkar və nəvazişkar etdi, [heç kəsə qarşı] zülmkar və asi [dikbaş] eləmədi!”[3]

«O[4], yüyürüb-qaçmaq və atasına kömək edə bilmək çağına çatdıqda [Ibrahim] dedi: «Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm. Bax gör [bu barədə] nə fikirləşirsən! O dedi: «Atacan! Sənə nə əmr olunursa, onu da et! İnşallah, mənim səbrlilərdən olduğumu görəcəksən!»[5]

Aişə ﵂ rəvayət edir ki; Peyğəmbər ﷺ dedi: «Cənnətə daxil oldum və orada mütaliə eşitdim. Mən "Bu kimdir?" – deyə soruşdum. Mənə dedilər ki "Bu Harisə bin Nomən və həmçinin sizin (içərinizdə olan) qayğıkeşlərdir"». [Aişə ﵂ dedi]: «O, anasının qayğısına qalan səhabələrdən idi»[6]

Abdullah bin Dinar rəvayət edir ki; Abdullah bin Ömər ﵄ Məkkəyə gedən yolda bir ərəblə rastlaşdı. Salam

---

[1] «Məryəm» surəsi, 14.
[2] İsa peyğəmbər ﵇.
[3] «Məryəm» surəsi, 30-32.
[4] İsmail peyğəmbər ﵇.
[5] «əs-Saffat» surəsi, 102.
[6] Əhməd, 6/151; «Səhihul-Cami əs-Sağir», 1/636, 3371-ci hədis.

verdikdən sonra ona (özünə məxsus olan) uzunqulağının üzərinə əyləşməyə kömək etdi və başındakı əmmaməni də ona verdi» Biz ona dedik: «Allah səni islah etsin! Ərəblər az ilə də qane olurlar» Abdullah dedi: «O, Ömər bin əl-Xattabın ﵁ sevimli yoldaşlarından idi. Mən peyğəmbərin ﷺ belə dediyini eşitdim: «Həqiqətən ən qayğıkeş insan, atasının sevimli yoldaşına qayğı göstərən övladdır».[1]

Zeynal-Abidin[2] anasına qarşı olduqca itaətkar və nəvazişkar idi. Bir dəfə ondan soruşdular ki, sən anana qarşı olduğca itaətkar və nəvazişkarsan. Bəs nə üçün onunla birgə yemək yemirsən? O dedi: «Qorxuram ki, onun gözü düşdüyü loxmanı mən yeyim və bununla da ona əziyyət verim».[3]

Ibn Aun rəvayət edir ki; «Bir kişi, anasının hüzurunda olan Məhəmməd bin Sirinin yanına gəlib onun səssiz, başıaşağı (müti şəkildə) dayandığını görüb soruşdu: «Məhəmmədə nə olub, xəstələnib?» Ona dedilər: «Xeyr xəstələnməyib, lakin anasının hüzürunda bu hala düşür».[4]

Cəfər bin Suleyman rəvayət edir ki, Məhəmməd bin əl-Münkədir başını yerə qoyub anasına deyərdi: «Gəl ayağını qoy başımın üstünə».[5]

Saleh əl-Abbasi Mənsurun məclisində ikən söhbət edir və hər dəfə öz atasını xatırladıqda rahiməhullah ***(Allah ona rəhm etsin)*** deyirdi. Bunu görən ər-Rabi ona dedi: «Möminlərin əmirinin hüzurunda atana çox rəhmət oxuma. (Bir dəfə dedin kifayətdir). O dedi: «Səni qınamıram. Həqiqə-

---

[1] Muslim, 6460.
[2] Əbu-əl-Həsən Əli bin əl-Hüseyn bin Əli bin Əbu Talib.
[3] «Siyəru ələmun-nubələ», 6/317.
[4] «Siyəru ələmun-nubələ», 6/128.
[5] «Siyəru ələmun-nubələ», 4/620.

tən sən ata şirinliyini (ləzzətini) dadmamısan». Mənsur gülümsəyib dedi: «Bu, Haşim övladlarına etiraz edənin cəzasıdır».[1]

Abdullah bin Cəfər bin Xaqan əl-Mərvazi rəvayət edir ki, Bundərin belə dediyini eşitdim: «Elm tələb etmək üçün səfərə çıxmaq istədim. Lakin anam bunu mənə qadağan etdi. Mən ona itaət etdim. (Əvəzində də) Allah mənə elm əta etdi».[2]

Zəhəbi Bundərin haqqında demişdir: «O yalnız Bəsrə şəhərində hədis toplayıb (elm alıb), anasına qarşı olduqca itaətkar və nəvazişkar olduğu üçün başqa şəhərlərə səfər etməyib».[3]

Amir bin Abdullah bin əz-Zubeyr dedi: «Atam vəfat etdikdən sonra bir il müddətində Allahdan yalnız onun bağışlanmasını istəmişəm».[4]

Təlq ibn Həbib anasının başından öpər və anası evin aşağı mərtəbəsində olduğu zaman yuxarı mərtəbəyə qalxmazdı.[5]

---

[1] «Birrul-valideyn», səh.98.
[2] «Siyəru ələmun-nubələ», 1/145.
[3] «Siyəru ələmun-nubələ», 1/144.
[4] «Birrul-valideyn», səh.78.
[5] «Birrul-valideyn», səh.78.

## NANKORLUQ

Aşağıda sadalanan əməllər nankorluğun zahiri əlamətlərindəndir:

1. Valideynləri hər hansı bir söz və ya hərəkətlə ağlatmaq, kədərləndirmək.

2. Onların üstünə qışqırıb acılamaq.

3. Onların buyruqlarına «uf» deyərək və s. etiraz etmək.

4. Onların hüzurunda qaşqabaq tökmək.

5. Onlara nifrətlə baxmaq.

6. Onlara nəyi isə əmr etmək.

7. Onların təqdim etdiyi ruzini və s. bəyənməmək, eyib etmək.

8. Ev işlərində onlara yardım etməmək.

9. Onlar danışdığı an üz çevirmək və danışdıqlarına məhəl qoymamaq.

10. Onların məsləhətinin (qocaldıqlarına və s. görə) faydasız olduğunu hesab etmək.

11. Onların yanına (otağa və s.) icazəsiz daxil olmaq.

12. Onların önündə (həyat yoldaşı, dost, övlad və s. ilə) əxlaqsız mübahisə aparmaq.

13. Qeyrilərinin yanında onları pisləmək və eyiblərini xatırlamaq.

14. Onları söymək və onlara lənət etmək.

15. Onların xoşuna gəlməyən canlını və ya əşyanı evə gətirmək.

16. Onların önündə əxlaqsızlıq etmək (siqaret çəkmək, telefonda qızla (oğlanla) məhəbbətdən danışmaq, alt paltarda gəzmək və s.).

17. Onların hüzurunda əxlaqsız əməlləri xatırlamaq.

18. Onları çətin vəziyyətə salmaq (borca girmək, cinayət törətmək, əxlaqsızlıqla onların adını ləkələmək və s.).

19. Günlərlə evdən didərgin düşmək və bununla da onları narahat etmək.

20. Onlara imkanları çatmadığı bir şeyi aldırmaq və ya tələb etmək.

21. Həyat yoldaşına (zövcəsinə) valideynlərindən artıq itaət etmək.

22. Qocalıq çağında onları tərk etmək.

23. Onları valideyn kimi təqdim etməkdən utanmaq.

24. Onları vurmaq.

25. Onların səhvlərini bağışlamamaq.

26. Onlara mal-dövlətdən xərcləməmək.

27. Onlara hər hansı bir əmələ görə minnət qoymaq.

28. Onların var-dövlətindən oğurlamaq.

29. Onların ölümünü təmənna etmək.

30. Onlardan xilas olmaq üçün onları öldürmək.

***Övladın nankor olmasının əsas səbəbləri:***

1. Cəhalət (elmsizlik).
2. Pis tərbiyə.
3. Ziddiyət (məsələn, valideyn övladına əmr etdiyinə özü əməl etmir).
4. Övladla sərt rəftar etmək.
5. Valideynlərin öz valideynlərinə qarşı nankor olması.
6. Allahdan qorxmamaq.
7. Övladın birini digərindən üstün tutmaq.
8. Həyat yoldaşının əxlaqsız olması.
9. Valideynin necə əziyyət çəkdiyinə məhəl qoymamaq.
10. Övladı yaxşı işlər görməyə həvəsləndirməmək.

## ŞAİRLƏRİN DEDİKLƏRİNDƏN

Hər nə etsən, ana haqqın unutma
Anan edib sənə canını qurban.
Bu ananın xatirinə, düşməndən
Gələn dərdə dözsün gərək hər insan.
Qorx o gündən ki, səni də tək qoyub,
Əbədilik anan köçər dünyadan.

*Xəqani ŞİRVANİ*
*«Seçilmiş əsərləri», səh.188*

Ananın qəlbinə toxunmaq olmaz,
Ana nəfəsindən çiçək də solmaz,
İnsanlıq süd əmmiş ana döşündən,
Soyuq bir məzardır anasız vətən.

*Səməd VURĞUN*
*«İpə-sapa düzülməmiş incilər», səh.108*